*BU KİTABI OXUYAN UŞAQLARA MESAJ*

*Siz böyüyəndə və sizin öz övladlarınız olanda,*
*xahiş edirəm, unutmayın ki,*
*darıxdırıcı valideynlər əyləncəli deyil.*

*Uşaq parlaq valideynlə vaxt keçirmək istəyir*
*və buna layiqdir.*

# MÜNDƏRİCAT


Fəsil 1. YANACAQ DOLDURMA MƏNTƏQƏSİ ........ 9

Fəsil 2. MEHRİBAN NƏHƏNG ........ 15

Fəsil 3. MAŞINLAR, ÇƏRPƏLƏNG VƏ ALOV ŞARLARI ........ 22

Fəsil 4. ATAMIN DƏHŞƏTLİ SİRRİ ........ 31

Fəsil 5. GİZLİ ÜSUL ........ 40

Fəsil 6. CƏNAB VİKTOR HEYZL ........ 48

Fəsil 7. BALACA "OSTİN" ........ 55

Fəsil 8. ÇUXUR ........ 66

Fəsil 9. DOKTOR SPENSER ........ 79

Fəsil 10. BÖYÜK OV MƏCLİSİ ........ 86

Fəsil 11. "YATMIŞ GÖZƏL" ........ 96

Fəsil 12. CÜMƏ AXŞAMI VƏ MƏKTƏB ........ 103

Fəsil 13. CÜMƏ ........ 120

Fəsil 14. MEŞƏDƏ ........ 126

Fəsil 15. GÖZƏTÇİ ........ 137

Fəsil 16. DÜNYA ÇEMPİONU ........ 143

Fəsil 17. TAKSİ ........ 153

Fəsil 18. EVDƏ ........ 158

Fəsil 19. YAT, BALACA ........ 164

Fəsil 20. ƏLVİDA, CƏNAB HEYZL ........ 175

Fəsil 21. DOKTOR SPENSERİN SÜRPRİZİ ........ 186

Fəsil 22. ATAM ........ 193

Fəsil 1

## YANACAQDOLDURMA MƏNTƏQƏSİ

Mən dörd aylıq olanda anam qəflətən vəfat edib. Atam məni tək böyüdüb. O zaman bax bu cür görünürdüm.



Mənim nə bacım, nə də qardaşım var idi. Odur ki, dörd aylığımdan bəri yanımda yalnız atamı görmüşəm.

Biz atama məxsus olan yanacaqdoldurma məntəqəsinin arxasında, köhnə qaraçı arabasında yaşayırdıq. Onun kiçik bir əkin sahəsi də var idi. Vəssalam, atamın bütün var-dövləti bundan ibarət idi. Bu kiçik yanacaqdoldurma məntəqəmiz tarlaların və meşələrin arasındakı dar kənd yolunun üstündə yerləşirdi.

Mən körpə olanda atam məni yuyundurub, yedizdirib, bezlərimi dəyişdirib və adətən, anaların etdiyi minlərlə kiçik işi yerinə yetirib. Kişi üçün heç də asan məsələ deyil. Xüsusilə də eyni zamanda dolanışıq üçün mühərriklərlə əlləşən və məntəqənin müştərilərinə xidmət etmək məcburiyyətində qalan adam üçün bütün bunlar çətin olardı.



Amma, deyəsən, bu vəziyyət onu heç də narahat etməyib. Düşünürəm ki, atam anama olan sevgisini bütünlüklə mənə yönəldib. Kiçik yaşlarımda mən heç vaxt xəstələnmirdim və çox xoşbəxt idim. Budur, beş yaşım olanda mən belə görünürdüm.

Üst-başım yağ içindədir. Bəli, ona görə ki, səhərdən axşama kimi emalatxanada qurdalanır, atama maşınları təmir etməkdə kömək edirdim.



Məntəqədə cəmi iki ədəd yanacaqdoldurma nasosu vardı. Onları ofis olaraq istifadə etdiyimiz qalan hissədən taxta arakəsmə ayırırdı. Otaqda köhnə bir stol və kassa aparatı vardı, vəssalam. Kassanın düyməsini basanda açılırdı və ucadan zəng səsi çıxarırdı. Bu mənim çox xoşuma gəlirdi.

Ofisin sol tərəfində yerləşən kvadrat kərpic bina emalatxana idi. Onu atam özü, diqqətlə və böyük sevgi ilə tikmişdi. Bu onun sahib olduğu yeganə möhkəm şey idi. Atam tez-tez mənə deyirdi:



– Səninlə mən ikimiz də mühəndisik, dolanışığımız mühərrik təmir etməkdən çıxır. Sınıq-salxaq bir emalatxanada biz öz işimizi keyfiyyətli yerinə yetirə bilmərik. Emalatxana kifayət qədər geniş idi, ora rahatlıqla bir maşın salmaq olurdu. Hətta iş görmək üçün də yer qalırdı. Müştərilərimizin təmirlə bağlı vaxt təyin etmələrini asanlaşdırmaq üçün biz telefon da əldə etmişdik.